2026

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten YANVAR

## ASA açıqladı: Bayram günlərində 2156 sığorta hadisəsi qeydə alınıb




ASA-nın sığorta şirkətlərindən aldığı məlumatlara görə, 31 dekabr 2025-ci il – 4 yanvar 2026-cı il tarixləri aralığında baş vermiş hadisələrlə bağlı 9 qeyri-həyat sığortası şirkətinə ümumilikdə 2156 sığortalı müraciəti daxil olub. Bu müraciətlərin 1876-sı “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” növü, 260-ı “Kasko” sığorta növü, 15-i “Daşınmaz əmlakın icbari sığortası” növü, 5-i isə “Əmlakın yanğından və digər risklərdən sığortası”ta hadisələri ilə bağlı olub. Məlumatlara görə, 1237 hadisə üzrə ehtimal olunan zərər məbləği 1 milyon 243 min 223 manat həcmində müəyyənləşdirilib.

## Sığortaçılara fiziki məhdudiyyətli şəxslərlə davranış qaydalarına həsr olunmuş təlim keçilib



Sığortaçılar üçün fiziki məhdudiyyətli şəxslərin sığorta şirkətlərində lazımi səviyyədə xidmətlə təmin edilməsi məqsədilə işçi heyətinə zəruri olan bacarıqların inkişaf etdirilməsi istiqamətində keçilən təlimlər, “Maliyyə savadlılığının artırılması istiqamətində 2026-cı il fəaliyyət planı”na əsasən Azərbaycan Mərkəzi Bankının cari il üzrə strategiyasına əsaslanaraq Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.
50-yə yaxın sığortaçının iştirak etdiyi və ASA Tədris Mərkəzinin direktoru Pərviz Quliyev tərəfindən keçilən təlimlərdə dinləyicilərə xüsusi həssas əhali qrupu ilə davranış qaydaları, o cümlədən, fiziki məhdudiyyətli müştərilərə xidmət zamanı tibbi yox, sosial yanaşmanın üstünlükləri və incəlikləri tədris edilib.

## “CatMod Azərbaycan” seysmik risk modelləri üzrə layihə müzakirə edilib



Azərbaycanın yüksək seysmik risk zonasında yerləşməsi fonunda təbii fəlakətlərin mümkün təsirlərinin elmi əsaslarla qiymətləndirilməsi istiqamətində işlər davam etdirilir. Bu çərçivədə İcbari Sığorta Bürosu ilə Türkiyənin “T-Rupt” Texnoloji A.Ş. şirkəti arasında əməkdaşlıq əsasında hazırlanmış “CatMod Azərbaycan” seysmik risk modeli üzrə görülmüş işlərin icra vəziyyəti müzakirə olunub.

Mərkəzi Bank və sığorta sektoru təmsilçilərinin iştirakı ilə keçirilən görüşdə bildirilib ki, modelin əsas məqsədi zəlzələ və digər təbii fəlakətlərin daşınmaz əmlaka mümkün təsirini obyektiv qiymətləndirmək, sığorta şirkətləri üçün risklərin daha dəqiq modelləşdirilməsini təmin etməkdir.

## ASA Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər Xiyabanında olub



Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin rəhbərliyi və kollektivi 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edərək 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.

36 il əvvəl doğma Vətənin, xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan, o qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalan qəhrəman Azərbaycan övladlarının əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Allah rəhmət eləsin!

# Azərbaycanda "InsurTech" ilə bağlı ilk dərsliyin təqdimat mərasimi keçirildi



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Sığortaçılar Assosiasiyası ilə birgə hazırlanmış "InsurTech" adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.

Tədbirdə dövlət qurumlarının, akademik ictimaiyyətin və sığorta sektorunun nümayəndələri iştirak ediblər.

İİTKM-in icraçı direktoru, professor Vüsal Qasımlı bildirib ki, dərs vəsaiti sığorta və texnologiyanın sintezini yalnız texniki yeniliklər kontekstində deyil, strateji idarəetmə, tənzimləmə mühiti və bazar davranışları prizmasından araşdıraraq ölkənin sığorta ekosistemi üçün yeni intellektual çərçivə formalaşdırır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxışında dərs vəsaitinin ali təhsil müəssisələrində sığorta işi və maliyyə ixtisasları üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm elmi mənbə olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanov çıxışında sığorta sektorunda texnoloji innovasiyaların tənzimləmə mühiti ilə uzlaşdırılmasının vacibliyini vurğulayaraq, "InsurTech" dərs vəsaitinin bu sahədə balanslı və sistemli yanaşmanı əks etdirdiyini bildirib.



Azərbaycan Sığortaçılar Assosiasiyasının Müşahidə Şurasının sədri, "PAŞA Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Ülviyyə Cabbarova kitabın real sektor təcrübəsinə əsaslanan məzmununun sığorta bazarında çalışan mütəxəssislər üçün praktiki əhəmiyyət daşıdığını qeyd edərək, "İnsurTech" həllərinin müştəri mərkəzli xidmət modellərinin inkişafında rolunu xüsusi vurğulayıb.

Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev çıxışında dərs vəsaitinin ölkədə sığorta sahəsində ilk dəfə olaraq "İnsurTech" mövzusunu kompleks şəkildə əhatə etdiyini bildirərək, nəşrin sektorun gələcək inkişafına dair strateji baxış formalaşdırdığını qeyd edib.

İcbari Sığorta Bürosunun icraçı direktoru Vüsal Məsiyev isə çıxışında sığorta fəaliyyətində rəqəmsal həllərin, xüsusilə blokçeyn və avtomatlaşdırılmış sistemlərin şəffaflıq və etimad mühitinin gücləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

## 2026-cı ilin Risk Barometri açıqlandı




"Allianz Commercial" hər il açıqladığı Risk Barometrinin 2026-cı il üzrə proqnoz buraxılışını yayımlayıb. Bu ilki buraxılış 97 ölkə və regiondan 23 müxtəlif sektoru təmsil edən 3338 risk mütəxəssisinin iştirakı ilə hazırlanıb.

- 2026-cı ilin qlobal 10 riski:
  - Kiber-hadisələr – 42%
  - Süni intellekt – 32%
  - İş fəaliyyətinin dayanması – 29%
  - Qanunvericilik və tənzimləyici dəyişikliklər – 26%
  - Təbii fəlakətlər – 21%
  - İqlim dəyişikliyi – 19%
  - Siyasi risklər və zorakılıq – 15%
  - Makroiqtisadi dəyişikliklər – 14%
  - Yanğın və partlayış – 13%
  - Bazar inkişafları – 13%

## Türkiyə sığorta bazarı 2025-ci ildə 46% böyüyüb

Türkiyə Sığorta Birliyi 2025-ci ilin yekun sığorta icmalını açıqlayıb. Bazar, hesabat dövrüdə 1 trilyon 222 milyard 997 milyon TL (48 milyard AZN) yığım təmin edərək 45.8% böyüyüb.

Müvafiq dövrdə həyat sığorta bazarı 178.8 milyard TL (7 milyard AZN) yığım ilə 79.1%, qeyri-həyat sığorta bazarı isə 1.04 trilyon TL (41 milyard AZN) yığım ilə 41.3% böyüyüb. Ümumi əhali üzrə sığortalılıq səviyyəsi (penetrasiya) 40,3%, 15 yaş və yuxarı əhali arasında isə sığortalılıq göstəricisi isə 52%-ə çatıb.

Ən böyük yığım "Avtonəliyyat vasitəsi sahiblərinin məsuliyyət sığortası" növü üzrə 41.1% artımla 309.8 milyard TL (12.1 milyard AZN) həcmində olub.

## 2025-ci ilin qlobal iqtisadi və sığortalı itkiləri açıqlandı




Aon-un açıqladığı "2025 Climate and Catastrophe Insight" hesabatına görə, 2025-ci ildə təbii fəlakətlər səbəbilə yaranmış qlobal iqtisadi itkilər 260 milyard dollar təşkil edib. Bunun da 49%-i, yəni 127 milyard dollarlıq hissəsi sığortalanmış zərər olub. Bununla da sığorta əhatə boşluğu (protection gap) 51% ilə tarixdə ilk dəfə ən aşağı həddə enib.

Ən böyük maliyyətli hadisələr ABŞ-də baş verən meşə yanğınları və şiddətli konvektiv fırtınalar göstərilir və 2025-ci il ərzində baş vermiş bütün bu təbii fəlakətlər nəticəsində dünya üzrə 42 min nəfərin həyatını itirdiyi bildirilir.

## Qlobal sığorta sənayesi üçün 2026-cı il üzrə proqnoz açıqlandı




"Fitch Ratings" qlobal sığorta sektorunun 2026-cı il üçün proqnozunu “neytral” səviyyədə saxlayıb. Agentliyin məlumatına görə, qlobal miqyasda fəaliyyət mühiti ümumilikdə sabit qalacaq, bəzi regionlarda və sığorta növlərində isə məhdud zəifləmə müşahidə oluna bilər.

Xüsusilə London sığorta bazarı, qlobal təkrarsığorta və ABŞ-nin tibbi sığortası bazarlarının, eləcə də, Meksika, Çin və Tayvanın həyat sığortası bazarlarının zəifləyəcəyi qeyd edilir.

"Fitch" İtaliyada həyat, Almaniyada isə qeyri-həyat sığortası bazarları üzrə proqnozunu “pozitiv”dən “neytral”a dəyişib. Bu qərarın əsas səbəbi, 2026-cı ildə biznes həcminin artım tempinin zəifləyəcəyi və gəlirliliyin sabit, lakin məhdud qalacağı gözləntiləridir.

"Fitch" ilk dəfə EMEA regionunda (Europe, Middle East and Africa) seçilmiş inkişaf etməkdə olan ölkələrin sığorta bazarlar üçün də proqnoz dərc edib. Belə ki, Səudiyyə Ərəbistanın qeyri-həyat sığortası bazarı “pozitiv” proqnoz ilə seçilir. Meksikanın sığorta bazarı üzrə proqnoz isə "Gəlir Qanunu"na dəyişikliklərdən sonra maliyyə göstəricilərinin və kapital adekvatlığının zəifləməsi səbəbilə “neqativ” səviyyəyə endirilib.

"Fitch" həmçinin qarşıdakı dövrdə maliyyə bazarlarında volatillik və gözləntiləri aşan defolt səviyyələrinin sığorta şirkətlərinin investisiya portfelləri vasitəsilə maliyyə profillərinə mənfi təsir göstərə biləcəyi barədə xəbərdarlıq edir. Eyni zamanda, qeyd olunur ki, bəzi həyat sığortası bazarlarında likvid olmayan aktivlərə artan yönəliş yaxından izlənməli risklərdəndir.

| Sığorta sinifləri | 2024-cü il | | 2025-ci il | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| **Könüllü sığortalar üzrə - cəmi:** | **1,011,330** | **613,016** | 1,138,898 | 773,824 | 13% | 26% |
| **Həyat sığortası üzrə, o cümlədən:** | **643,841** | **477,471** | 751,491 | 636,979 | 17% | 33% |
| Həyatın yaşam sığortası | 599,197 | 474,155 | 701,003 | 631,554 | 17% | 33% |
| Həyatın ölüm halından sığortası | 34,182 | 2,646 | 38,301 | 3,431 | 12% | 30% |
| Əmək qabiliyyətinin sığortası | 3,608 | 199 | 4,324 | 478 | 20% | 140% |
| Sağalmaz xəstəliklərdən sığorta | 6,853 | 472 | 7,863 | 1 515 | 15% | 221% |
| **Qeyri-həyat sığortası üzrə, o cümlədən** | **367,489** | **135,545** | **387,407** | **136,845** | 5% | 1% |
| **Şəxsi sığorta, o cümlədən:** | **133,982** | **97,621** | **146,529** | **90,372** | 9% | - 7% |
| Tibbi sığorta | 123,087 | 96,642 | 133,026 | 89,204 | 8% | - 8% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 5,579 | 650 | 5,945 | 731 | 7% | 12% |
| Fərdi qəza və xəstəlik sığortası | 5,316 | 329 | 7,559 | 437 | 42% | 33% |
| **Əmlak sığortası, o cümlədən:** | **233,507** | **37,924** | **240,878** | **46,474** | 3% | 23% |
| **Əmlakın sığortası, o cümlədən:** | **204,698** | **37,543** | **206,977** | **46,302** | 1% | 23% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 21,823 | 793 | 15,298 | 0 | - 30% | - 100% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 88,953 | 3,769 | 85,525 | 4,010 | - 4% | 6% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 66,032 | 23,296 | 78,626 | 32,463 | 19% | 39% |
| Yüklərin (nəqliyyat) sığortası | 7,011 | 1,762 | 6,454 | 521 | - 8% | - 70% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 2,104 | 1,331 | 4,725 | 558 | 125% | - 58% |
| Su nəqliyyat vasitələrinin sığortası | 6,480 | 1,342 | 3,279 | 0 | - 49% | - 100% |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 12,133 | 5,250 | 12,832 | 8,751 | 6% | 67% |
| **Əmlakın sığortası ilə bağlı digər siniflər, o cümlədən:** | **86** | **0** | 160 | 0 | 87% | 0 |
| **Mülki məsuliyyətin sığortası, o cümlədən:** | **23,039** | **306** | **27,725** | **111** | 20% | - 64% |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 795 | 7 | 3,946 | 0 | 396% | - 100% |
| Ümumi mülki məsuliyyətin sığortası | 15,065 | 241 | 12,272 | 61 | - 19% | - 75% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 3,633 | 53 | 5,642 | 36 | 55% | - 31% |
| Peşə məsuliyyətinin sığortası | 2,041 | 2 | 2,094 | 13 | 3% | 424% |
| Işəgötürənin məsuliyyət sığortası | 804 | 0 | 675 | 0 | - 16% | 0 |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 63 | 3 | 179 | 1 | 184% | - 73% |
| Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 15 | 0 | 2,179 | 0 | 14 142% | 0 |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 621 | 0 | 738 | 0 | 19% | 0 |
| **Kredit sığortası, o cümlədən:** | **5,259** | **76** | **5,681** | **60** | 8% | - 20% |
| Kreditlərin sığortası | 5,259 | 76 | 5,681 | 60 | 8% | - 20% |
| Qarışıq maliyyə risklərinin sığortası, o cümlədən: | 510 | 0 | **496** | **0** | - 3% | 0 |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 510 | 0 | 496 | 0 | - 3% | 0 |
| **İcbari sığortalar üzrə - cəmi:** | **341,856** | **139,696** | **365,811** | **146,571** | 7% | 5% |
| **Həyat sığortası üzrə** | **90,180** | **5,781** | **101,519** | **5,953** | 13% | 3% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 90,180 | 5,781 | 101,519 | 5,953 | 13% | 3% |
| **Qeyri-həyat sığortası üzrə** | **251,676** | **133,915** | **264,292** | **140,618** | 5% | 5% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 167,711 | 129,997 | 182,114 | 137,593 | 9% | 6% |
| Daşınmaz əmlakın icbari sığortası | 82,699 | 3,310 | 80,804 | 2,778 | - 2% | - 16% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 1,103 | 159 | 1,185 | 164 | 7% | 3% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 126 | 67 | 147 | 82 | 16% | 23% |
| Digər icbari sığorta növləri | 37 | 381 | 42 | 0 | 15% | - 100% |
| **Yekun** | 1,353,185 | 752,712 | 1,504,709 | 920,395 | 11% | 22% |

Azərbaycan sığorta bazarında 2025-ci ilin nəticələrini 2024-cü ilin nəticələri ilə müqayisə etdikdə, sığorta haqlarının 11% artaraq 1 milyard 353 milyon 185 min manatdan, 1 milyard 504 milyon 709 min manata qədər yüksəldiyi müşahidə olunur.

Hesabat dövründə Azərbaycanın sığorta bazarının böyüməsində 3 istiqamət mühüm rol oynayıb: Həyatın yaşam sığortası, Avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin icbari sığortası və KASKO sığorta. Belə ki, Həyatın yaşam sığortası növü üzrə sığorta haqlarında 101 milyon 806 min manat, Avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin icbari sığortası istiqamətində isə 14 milyon 403 min manat, KASKO sığorta üzrə isə 12 milyon 595 min manat artım qeydə alınmışdır.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2025-ci il üzrə sığorta ödənişlərinin həcmində 2024-cü ilin nəticələri ilə müqayisədə 22% artım müşahidə olunmuşdur. Ödənişlərin faiz göstəricisinin artım səbəbi olaraq Həyatın yaşam sığorta növü üzrə ödənişlərin 157 milyon 400 min manat dəyərində yüksəlməsidir. 2025-ci il üzrə bütün sığorta ödənişlərinin 70%-i həyat sığortası, 30%-i isə qeyri-həyat sığortası sinfinin payına düşür.













2024-cü və 2025-ci illərin yekun müqayisəsinə əsasən, yığımlarda könüllü sığorta növlərinin 127 milyon 569 min manat artaraq sığorta bazarının 76% hissəsini əhatə etdiyi görünür. Könüllü sığortalar üzrə ödənişlər isə bazar payının 84%-ni özündə əks etdirir.

## Könüllü TOP 5 – 2025-ci il Sığorta haqları üzrə




## Könüllü TOP 5 – 2025-ci il Sığorta ödənişləri üzrə




## İcbari TOP 3 – 2025-ci il Sığorta haqları üzrə




## İcbari TOP 3 – 2025-ci il Sığorta ödənişləri üzrə




Qeyd:
AVSMMS - Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası
İBHİS - İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta
DƏİS - Daşınmaz əmlakın icbari sığortası

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta haqları)

| Dinamika (min manatla) | Sığorta növü |
|---|---|
| 101.806 | Həyatın yaşam sığortası |
| 4.119 | Həyatın ölüm halından sığortası |
| 715 | Əmək qabiliyyətinin sığortası |
| 1.010 | Sağalmaz xəstəliklərdən sığorta |
| 11.340 | İBHİS |




## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta ödənişləri)

| Dinamika (min manatla) | Sığorta növü |
|---|---|
| 157.400 | Həyatın yaşam sığortası |
| 785 | Həyatın ölüm halından sığortası |
| 279 | Əmək qabiliyyətinin sığortası |
| 1.043 | Sağalmaz xəstəliklərdən sığorta |
| 172 | İBHİS |




Həyat sığortası məhsulları 2025-ci il üzrə yerli sığorta bazarının böyüməsinə təkan verən liderlərdəndir. 1 milyard 504 milyon 709 min manat yığımın 57%-ni, yəni 853 milyon 010 min manatı bu sığorta sinfinin payına düşür. Həyat sığortası sinfində bütün yığımların 82%-ni Həyatın yaşam sığortası, 4%-ni Həyatın ölüm halından sığortası, 1%-ni isə Sağalmaz xəstəliklərdən sığorta növləri təşkil edir. Sığorta bazarının inkişafına təkan verən daha bir məhsul isə İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (İBHİS) növüdür. Bu da həyat sığortası sinfi üzrə yığımların 12%-ni təşkil edir.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta haqları)

| Dinamika (min manatla) | Sığorta növü | |
|---|---|---|
| 9.939 | Tibbi sığorta | 8% |
| 365 | Xaricə səfər edən vətəndaşların sığortası | 7% |
| 2.243 | Fərdi qəza və xəstəlik sığortası | 42% |
| 12.595 | Avtonəqliyyat vasitələrinin sığortası | 19% |
| 2.621 | Kənd təsərrüfatı heyvanlarının sığortası | 125% |
| 699 | Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 6% |
| 3.151 | Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 396% |
| 2.009 | Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 55% |
| 53 | Peşə məsuliyyətinin sığortası | 3% |
| 116 | Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 184% |
| 2.164 | Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 14142% |
| 116 | Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 19% |
| 422 | Kreditlərin sığortası | 8% |
| 14.403 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 9% |
| 81 | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 7% |
| 21 | Sərnişinlərin icbari fərdi qəza sığortası | 16% |
| 5 | Digər qeyri-həyat sığorta növləri | 15% |

2024-cü ilə nisbətdə 2025-ci ildə yığılan məbləğ olaraq könüllü sığorta növlərində 19 milyon 919 min manat artım qeydə alınıb. Cədvəldə keçən ildən bu ilə nəzərən faiz göstəricisi olaraq Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası növündə xüsusi artım müşahidə olunur. Eyni zamanda, artan məbləğ olaraq Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və Avtonəqliyyat vasitələrinin sığortası növlərinin də vurğulamaq olar.

Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası, ASA Tədris Mərkəzi, Azərbaycan Banklar Assosiasiyası və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın birgə əməkdaşlığı ilə "Bank Sığortaçılığının Cari Vəziyyətinin Qiymətləndirilməsi" mövzusunda tədqiqat işi aparılmışdır. 2025-ci ilin avqust–sentyabr aylarını əhatə edən və 404 respondent arasında aparılmış sorğunun nəticələrinə əsasən, "Hazırda hansı sığorta məhsullarından istifadə edirsiniz?" sualına respondentlərin ən yüksək faizi – 54,2%-i Avtomobilin icbari sığortası növünü vurğulamışdır. Bu göstərici sözügedən sığorta növünün icbari xarakter daşıması və avtomobil sahibliyinin geniş yayılması ilə izah olunur.

Respondentlərin 62,4%-i bu sığorta məhsulunu birbaşa sığorta şirkətləri, 29,9%-i isə sığorta agentləri vasitəsilə əldə etdiyini bildirmişdir. 7,9% respondentə son bir il ərzində bank xidmətlərindən istifadə zamanı icbari sığorta ilə bağlı təklif olunmuş, həmin şəxslərin təxminən 40%-i bu təklifi qəbul etmişdir.

Məlumatlılıq mənbələri üzrə respondentlərin 57,2%-i sosial media, 28,5%-i isə sığorta şirkətlərinin rəsmi kommunikasiya kanalları vasitəsilə məlumat əldə etdiyini qeyd etmişdir.

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta haqları)




| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Hava nəqliyyatı vasitələrinin sığortası | -6.525 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | -3.428 |
| Yüklərin (nəqliyyat) sığortası | -556 |
| Su nəqliyyat vasitələrinin sığortası | -3.201 |
| Ümumi mülki məsuliyyətin sığortası | -2.794 |
| İşəgötürənin məsuliyyət sığortası | -129 |
| İşin dayanması ilə bağlı risklərdən sığorta | -15 |
| Daşınmaz əmlakın icbari sığortası | -1.995 |

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta ödənişləri)

| Dinamika (min manatla) | Sığorta növü | |
|---|---|---|
| 81 | Xaricə səfər edən vətəndaşların sığortası | 12% |
| 108 | Fərdi qəza və xəstəlik sığortası | 33% |
| 241 | Əmlakın yanğından və digər risklərdən sığortası | 6% |
| 9.167 | Avtonəqliyyat vasitələrinin sığortası | 39% |
| 3.501 | Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 67% |
| 10 | Peşə məsuliyyətinin sığortası | 424% |
| 7.596 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 6% |
| 5 | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 3% |
| 15 | Sərnişinlərin icbari fərdi qəza sığortası | 23% |

Qeyri-həyat sığorta sinfi üzrə ödənişlərə gəldikdə isə, yuxarıdakı cədvəldə qeyd olunduğu kimi, 2025-ci ildə 3 əsas növdə faiz göstəricilərinə görə yüksəliş xüsusi diqqət çəkir. Bunlardan 424% artımla birinci yerdə Peşə məsuliyyətinin sığortası növü qərar tutur. Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası növü 67% artımla ikinci yeri tutur. Avtonəqliyyat vasitələrinin sığortası növü 39% artımla növbəti yerlərdə qərarlaşır.

Lakin məbləğ üzrə ən çox ödənişlər qeyri-həyat sığortası üzrə 140 milyon 618 min manatla yenə də İcbari sığorta növlərinin payına düşür.

## QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə sığorta ödənişləri)




| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | -7.438 |
| Hava nəqliyyatı vasitələrinin sığortası | -793 |
| Yüklərin (nəqliyyat) sığortası | -1.242 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | -773 |
| Su nəqliyyat vasitələrinin sığortası | -1.342 |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -7 |
| Ümumi mülki məsuliyyətin sığortası | -180 |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası | -16 |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | -2 |
| Kreditlərin sığortası | -15 |
| Daşınmaz əmlakın icbari sığortası | -532 |
| Digər icbari sığorta növləri | -381 |

Yuxarıdakı cədvəldə göründüyü kimi yığımlardakı artımlarla müqayisədə ödənişlərdə azalma ilə müşahidə olunan bir neçə sığorta növləri əks olunmuşdur. Bunlar keçən ilə nəzərən 7 milyon 438 min manat az ödənişlə Tibbi sığorta və 773 min manat az ödənişlə Kənd təsərrüfatı heyvanlarının sığortası növləridir.

# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA
## (2024 - 2025-ci illər üzrə)

| № | Qeyri-həyat Sığorta Şirkətləri | 2024 -cü il | | 2025-ci il | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları | Sığorta ödənişləri |
| 1 | “A-Qroup Sığorta Şirkəti” ASC | 18.717 | 13.875 | 20.738 | 12.014 | 11% | - 13% |
| 2 | “AtaSığorta” ASC | 10.394 | 4.297 | 10.031 | 5.857 | - 3% | 36% |
| 3 | “Atəşgah” Sığorta Şirkəti ASC | 76.436 | 29.018 | 63.804 | 40.469 | - 17% | 39% |
| 4 | "Aqrar Sığorta" ASC | 14.080 | 6.408 | 17.300 | 9.156 | 23% | 43% |
| 5 | “Azərbaycan Sənaye Sığorta” ASC | 24.943 | 12.099 | 33.190 | 13.143 | 33% | 9% |
| 6 | “AzSığorta” ASC | 9.019 | 1.527 | 8.239 | 1.836 | - 9% | 20% |
| 7 | “Xalq Sığorta” ASC | 24.699 | 9.951 | 25.410 | 10.883 | 3% | 9% |
| 8 | “İpək Yolu Sığorta” ASC | 6.210 | 256 | 5.734 | 227 | - 8% | - 11% |
| 9 | “Qala Sığorta” ASC | 79.351 | 17.351 | 78.940 | 27.067 | - 1% | 56% |
| 10 | “Meqa Sığorta” ASC | 36.217 | 15.699 | 33.150 | 16.146 | - 8% | 3% |
| 11 | “PAŞA Sığorta” ASC | 317.560 | 141.292 | 355.163 | 140.665 | 12% | - 0,44% |
| YEKUN | | 617.627 | 251.773 | 651.699 | 277.463 | 6% | 10% |

Ödənişlərə münasibətdə 2025-ci ildə vəziyyət belədir: Sığorta ödənişlərinə görə bazarda 56% artım ilə “Qala Sığorta” Şirkəti birinci yerdə qərarlaşdı. İkinci yeri 43% artım ilə “Aqrar Sığorta” Şirkəti , “Atəşgah” Sığorta Şirkəti üçüncü yeri 39% artımla tutdu.

Beləliklə, biz hesabat dövrü ərzində bazar üzrə bütün sığorta ödənişlərinin 30%-nin qeyri-həyat sığorta şirkətləri tərəfindən həyata keçirildiyini görə bilirik.

## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)







## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA
(2024 - 2025-ci illər üzrə)

| № | Sığortaçının adı | 2024-cü il | | 2025-ci il | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları | Sığorta ödənişləri |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 90.939 | 53.230 | 112.492 | 69.792 | 24% | 31% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 11.366 | 5.937 | 11.963 | 4.877 | 5% | - 18% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 25.677 | 4.279 | 30.848 | 2.607 | 20% | - 39% |
| 4 | "Meqa Həyat" Sığorta ASC | 11.640 | 1.028 | 17.958 | 4.583 | 54% | 346% |
| 5 | "PAŞA Həyat Sığorta" ASC | 594.399 | 418.779 | 679.750 | 561.073 | 14% | 34% |
| YEKUN | | 734.020 | 483.252 | 853.010 | 642.932 | 16% | 33% |

Yığımlara münasibətdə isə 2025-ci ildə vəziyyət yuxarıdakı qrafikdəki kimidir. Belə ki, sığorta yığımlarına görə bazarda 6 milyon 318 min manat artım ilə "Meqa Həyat" Sığorta Şirkəti birinci yerdə qərarlaşdı. İkinci yeri 24% artımla "Atəşgah Həyat" Sığorta Şirkəti, üçüncü yeri 20% artımla "Qala Həyat" Sığorta Şirkəti tutdu.

Buna baxmayaraq, bütün bazar üzrə yığımların 679 milyon 750 min manatla 45%-ni məhz "PAŞA Həyat Sığorta" Şirkəti öz əlində cəmləyərək liderlik edir.

Beləliklə, biz ümumi bazar üzrə bütün sığorta yığımlarının 57%-nin həyat sığorta şirkətləri tərəfindən həyata keçirildiyini görə bilirik.

## Həyat sığorta şirkətləri TOP- 5 (sığorta haqları üzrə)







## Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






# KASKO sığorta növü üzrə pay bölgüləri

| 2024-cü il | | | | |
|---|---|---|---|---|
| Sığorta şirkətinin adı | Fiziki | Hüquqi | Cəmi sayla | Cəmi haqla |
| "A-Qroup Sığorta" ASC | 456 | 712 | 1.168 | 1.549.386,32 |
| “AtaSığorta” ASC | 136 | 824 | 960 | 1.763.591,25 |
| "Atəşgah" Sığorta Şirkəti ASC | 2.378 | 2.947 | 5.325 | 9.370.309,51 |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 137 | 3.413 | 3.550 | 3.939.571,37 |
| "AZSIĞORTA" ASC | 144 | 345 | 489 | 469.045 |
| "Xalq Sığorta" ASC | 894 | 2.726 | 3.620 | 4.958.460 |
| “İpək Yolu Sığorta” ASC | 45 | 522 | 567 | 982.183,26 |
| "Qala Sığorta" ASC | 1.049 | 6.135 | 7.184 | 8.817.810,10 |
| "Meqa Sığorta" ASC | 1.351 | 3.702 | 5.053 | 6.206.836,92 |
| "PAŞA Sığorta" ASC | 11.124 | 10.600 | 21.724 | 25.285.376,61 |

# KASKO sığorta növü üzrə pay bölgüləri

| 2025-ci il | | | | | |
|---|---|---|---|---|---|
| Sığorta şirkətinin adı | Fiziki | Hüquqi | Cəmi sayla | Cəmi haqla | Dinamika (2024-2025-ci illər üzrə haqlar) |
| "A-Qroup Sığorta" ASC | 426 | 869 | 1.295 | 1.475.103,21 | -5% |
| "AtaSığorta" ASC | 163 | 502 | 665 | 796.845,72 | -55% |
| "Atəşgah" Sığorta Şirkəti ASC | 4.810 | 2.294 | 7.104 | 11.260.222 | 20% |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 317 | 3 628 | 3.945 | 3.896.398,59 | -1% |
| "AZSIĞORTA" ASC | 67 | 155 | 222 | 277.874 | -41% |
| "Xalq Sığorta" ASC | 980 | 2.172 | 3.152 | 3.931.851,53 | -21% |
| "İpək Yolu Sığorta" ASC | 40 | 527 | 567 | 1.071.883,27 | 9% |
| "Qala Sığorta" ASC | 1.425 | 5.580 | 7.005 | 9.346.199,70 | 6% |
| "Meqa Sığorta" ASC | 2.045 | 3.767 | 5.812 | 6.278.273 | 1% |
| "PAŞA Sığorta" ASC | 123.028 | 103.272 | 226.300 | 39.718.995 | 57% |

Cədvəldən göründüyü kimi 2024-cü və 2025-ci illər üzrə KASKO sığorta növü üzrə yığımlarda 57% artım ilə "PAŞA Sığorta" ASC birinci, "Atəşgah" Sığorta Şirkəti ASC 20% artımla ikinci, "İpək Yolu Sığorta" ASC isə 9% artım ilə üçüncü yerdə qərarlaşıb.

Bu da KASKO sığorta növü üzrə 2024-cü və 2025-ci illər üzrə 12 milyon 595 min manat artım deməkdir.

Belə ki, 2025-ci il üzrə ümumi yığılmış 1 milyard 504 milyon 709 min manatlıq sığorta haqqının 78 milyon 626 min manatı məhz Avtonəqliyyat vasitələrinin sığortası növünün payına düşür. Bu da öz növbəsində keçən ilə nəzərən bu il üçün 19% artım deməkdir.

Qeyd edək ki, KASKO sığorta növü könüllü sığortalar üzrə 2025-ci ilin qeyri-həyat sığorta sinifləri yığımlarının 12%-ni təşkil etmişdir.

Həmçinin, hüquqi şəxslər arasında KASKO üzrə sığortalanan 122 min 766 avtonəqliyyat vasitələrinin 98,8%-i korporativ şəxslər üçün, 1,12%-i isə dövlət idarələri üçün sığortalanan avtonəqliyyat vasitələrinin payına düşür.









Yuxarıdakı qrafiklərdə KASKO məhsulu üzrə sığortalanmış avtomobillərə dair məlumatlar öz əksini tapmışdır. Göründüyü kimi, istər fiziki, istərsə də hüquqi (korporativ və dövlət) növləri üzrə bütün qrafiklərdə liderlik "PAŞA Sığorta" ASC-yə aiddir.

Qeyd edək ki, 2025-ci il ərzində 10 sığorta şirkəti tərəfindən 256 min 67 avtomobil sığortalanıb. KASKO üzrə yığılan haqlar 2025-ci il ərzində könüllü sığorta sinifləri üzrə yığılan haqların 20%-ni təşkil edərək ölkəmizdə KASKO sığorta üzrə aparılan işlərin uğurlu nəticəsini bir daha sübut edir.

KASKO məhsulu üzrə sığortalanmış bütün avtomobillərin 52,05%-i fiziki şəxslərin, 47,94%-i hüquqi şəxslərin payına düşür.





QROUP

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***13.245 AZN***

AtaSığorta
Sizinlə dost sığorta



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***19.645 AZN***





AZƏRBAYCAN
SƏNAYE SIĞORTA ŞİRKƏTİ



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***21.125,50 AZN***

Xalq Sığorta





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***16.245,16 AZN***





QALA Hayat Sığorta şirkəti

*Sığorta növü: İpoteka krediti üzrə borcalanların həyat sığortası;*
*Sığorta hadisəsi: Ölüm halı*
*Ödənilmiş sığorta məbləği:* ***47.157 AZN***

QALA SIĞORTA





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***65.000 AZN***







MEQA SIĞORTA

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***19.571 AZN***

PAŞA Sığorta



*Sığorta növü: DƏİS*
*Sığorta hadisəsi: Güclü külək nəticəsində yaranmış zərər*
*Ödənilmiş sığorta məbləği:* ***53.815 AZN***



# Xalq Sığorta

Şirkət 2005-ci il yanvar ayının 26-da rəsmi dövlət qeydiyyatından keçib. 20-dən artıq könüllü, 3 icbari sığorta növünün satışını həyata keçirməklə sığorta xidməti göstərən “Xalq Sığorta” ASC-nin nizamnamə kapitalı 58 milyon 750 min 500 manat təşkil edir.

Çoxşaxəli filial şəbəkəsinin sayəsində Şirkət Azərbaycan Respublikasının bütün ərazisində müştərilərin maraqlarının mühafizəsini təmin edə bilir. Partnyor və müştərilər qarşısında öhdəliklərin vaxtlı vaxtında həyata keçirilməsi sığorta bazarında Şirkətə nüfuzlu ad və hörmət qazandırmışdır ki, yerli və xarici sığorta və təkrarsığorta şirkətləri ilə uzunmüddətli güvənli əməkdaşlıq əlaqələri bunu bir daha sübut edir.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun fəal üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Xalq Sığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Azərbaycan Sığortaçılar Assosiasiyası

asa_insurance

ASA Azərbaycan Sığortaçılar Assosiasiyası
(Azerbaijan Insurers Association)

https://www.asa.az/